# EKOTƏRBİYƏNİN TƏŞKİLİNİN METOD VƏ PRİNSİPLƏRİ

**Nigar Həsənli,**
*Azərbaycan Dövlət Pedaqoji Unuversiteti*
E-mail: nigarhesenli@yahoo,com

**Rəyçilər:** *biol.ü.elm.dok., prof.* R.L. Sultanov,
*biol.ü.fəls.dok., dos.* H. Hacıyeva

***Açar sözlər:*** *müəllim, şagird, tədris, dərs, ev tapşırıqları*
***Ключевые слова:*** *учитель, ученик, обучение, урок, домашнее задание*
***Key words:*** *Teacher, student, teaching, lesson, homework*

Cəmiyyətin və təbiətin çoxaspektli kompleks əlaqələrinin olmasını ekotəhsil və tərbiyə müəyyən edir. Ekotəhsildə əsas prinsiplər: intizamlı yanaşma, ekomaterialların sistematik və fasiləsiz öyrənilməsi, intellektual və emosional bilik, qlobal, milli və s. əlaqələrin açılmasıdır.

Ekotərbiyənin və təhsilin inkişafı üçün ekskursiyalar təşkil etmək məqsədəuyğundur. Bunun üçün canlı olaraq ətraf mühitin aşağıdakı formada müşahidə qaydaları öyrənilməlidir.

1) ətraf mühiti öyrənmək: bitki növlərinin təyini (ağac, kol, ot ) və heyvanların öyrənilməsi; təbii komponentləri və onların vəziyyətini xarakterizə etmək, gedən proseslərə və təzahürlərə nəzarət etmək (fenoloji, mikroiqlim, geomorfoloji və s.)

2) ətraf mühitin həm bütöv, həm də ayrıca kompleks və komponentlərinin vəziyyətini qiymətləndirmək, təbii resursların ehtiyatlarını təyin etmək, çirklənmənin və deqradasiyanın dərəcəsini müəyyən etmək;

3) Ətraf mühitin yaxşılaşdırılması üçün alternativ təkliflər etmək;

4) Təbiətin qorunması üçün praktiki işlərdə iştirak etmək.(sahələrin eroziyadan qorunması, bitkilərin əkilməsi və becərilməsi, heyvanların yemlənməsi və xülasə)

Ekologiyanın tədrisində və ekoloji tərbiyədə vacib yer məktəblilərlə sinifdənxaric və məktəbdənkənar işlərin üzərinə düşür. Sinifdənxaric işlərə ekskursiyaların, turist səfərlərinin, kütləvi tədbirlərin keçirilməsi aid edilir: yaşayış məntəqələrinin yaşıllaşması, meşələrə qayğı, torpağın dağıdılmasına qarşı mübarizə, heyvanlara qulluq ekologiyanın tədris və tərbiyəsində mühüm yer tutur. Sinifdənxaric və məktəbdənkənar işlər ekoloji tərbiyə sahəsində aşılanan hisslərin möhkəmləndirilməsinə xidmət etməlidir.

Ekoloji ekskursiyalar ətraf mühiti qrup şəklində dərk edən ekoloji tədris formasıdır. Ekskursiyalar obyekt və hadisələrin təbii şəraitdə öyrənilməsi və bir sıra xüsusiyyətləri ilə fərqlənirlər. Tədqiqatlarda yaradıcılıq, təşəbbüskarlıq və yüksək dərəcədə sərbəstlik göstərilir. Praktik işlərin yerinə yetirilməsində tədris və tərbiyə işləri, eləcə də bacarıq və vərdişlər təkmilləşdirilir.

Ekoloji tərbiyə ümumiyyətlə tərbiyənin mühüm komponentlərindən hesab olunur. Çünki təbiətə münasibət ictimai, əxlaqi, şüurlu və humanist münasibətdir. Hazırda ekoloji tərbiyə əqli, estetik, əmək, vətənpərvərlik və s. istiqamətlərdə mənəvi keyfiyyətlər aşılayır. Ona görə də təlim prosesində ekoloji tərbiyə üzrə iş aparılarkən tərbiyənin digər komponentlərinin müsbət həllinə də diqqət yetirilməlidir. Ekoloji tərbiyə probleminin optimal həlli üçün təkcə təlim və sinifdənxaric tədbirlər prosesində aparılan işlər azlıq təşkil edir. Bu işə ailə, ictimaiyyət, dövri mətbuat (qəzet, jurnal, radio və televiziya verilişləri) ictimai təşkilatlar cəlb olunmalı, onların fəallığı son dərəcə təmin edilməlidir.

İbtidai siniflərdə həm dərs məşğələlərində, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə ekoloji tərbiyə üzrə aparılacaq işin məzmununun, mahiyyətinin, xarakterinin, başqa sözlə, onun nəzəri praktik məsələlərinin aydınlığı müəllimlərin həmin sahədəki fəaliyyət nəticələrinin effektini yüksəldir. Fənlərin tədrisində ekoloji tərbiyə üzrə iş aparmağa imkan verən mövzu və bölmələr arasında möhkəm əlaqələr yaradılmalıdır. İbtidai siniflərin əmək təlimi

proqramında "Tədris – təcrübə sahəsində ekskursiya", "Atmosferin çirklənməsi və ona qarşı mübarizə", "Məktəbyanı sahədə şitillərin əkilməsi" mövzuları, Təbiətşünaslıq fənnindən "Bitkilərin qorunması və çoxalması", "Havanın mühafizəsi" mövzularını ekoloji tərbiyə ilə - təbiətşünaslıqla əlaqələndirmək, şagirdlərin biliklərini nəzəri və praktik cəhətdən sistemə salmaq, möhkəmləndirmək mümkündür. Hər bir mövzunun məzmunu mümkün qədər təbiət materialları, müxtəlif xarakterli şəkillər və vəsaitlərlə əyaniləşdirilməlidir. Bu prosesdə müəllimlər şagirdlərin diqqətini daha zəruri məsələlər üzərində cəmləşdirməlidir. Ümumiyyətlə bütün bu proseslərlə şagirdlərin həm ekoloji mühitin qorunmasında, həm də inkişafında fəal iştiraklarını dəstəkləmək müsbət addım kimi qiymətləndirilməlidir. Şagirdlərin öyrəndikləri ilə praktiki təcrübələri bir birinə bağlı olmalıdır.

Şagirdlərə xüsusilə vurğulamaq lazımdır ki, təbiət komponentlərindən bu və ya digəri sıradan çıxarsa ekoloji tarazlıq pozular və bu təbiətdə gedən digər proseslərə də öz mənfi təsirini göstərə bilər. Atmosferin çirklənməsi və ekoloji vəziyyətin daha da pisləşməsi canlı varlıqların məhvinə belə səbəb ola bilər. Bu baxımdan təbiətdən istifadənin şüurlu şəkildə dərk edilməsi və təbiətin mühafizəsi şagirdlərə ətraflı şəkildə izah edilməlidir. Təbiətdəki tükənən və tükənməyən sərvətlərdən səmərəli istifadənin zəruriliyi, xammal və enerjiyə tələbatın ödənilməsi və ən əsas sağlamlığın qorunması baxımından irəli gələn bütün vəzifə və öhdəliklər şagirdlərə öyrədilməlidir.

Şəhər və kənd məktəblərində ekoloji tərbiyə üzrə işin başlıca istiqaməti əsasən məktəbin, məktəbyanı sahənin, yol kənarlarının, parkların, bağların, yaşayış məntəqələrinin ətrafının yaşıllaşdırılması, toxumların səpilməsi, heyvanlara və quşlara qulluq edilməsidir.

Məktəblərdə ekoloji tədris və tərbiyə sistemində müəyyən istiqamətlərdən biri də humanitar fənlərin üzərinə düşür. Belə ki, tarix dərsində bəşər tarixinin bəşər tarixinin bütün dövrlərində cəmiyyət və təbiət münasibətləri məsələsinə baxılır, bu münasibətlər analiz edilir. Müxtəlif tarixi dövrlərin və dövlətlərin mədəniyyətini təbiətin fəlsəfi cəhətdən dərk edilməsi və onun həmin mədəniyyətə münasibətini analiz etmədən öyrənmək olmaz. Cəmiyyətin ekoloji şüurunun inkişaf etapları mütləq açılmalıdır. Dünyanın müxtəlif ölkələrində, regionlarında mədəniyyətin, elmin, incəsənətin inkişafı ətraf mühitlə sıx əlaqəlidir. Bundan başqa cəmiyyət və təbiətin bütün tarixi etaplarında təbiətin qorunmasının müxtəlif formaları yaranmışdır.

**Problemin aktuallığı.** Ekotərbiyənin diqqət mərkəzinə gətirilir.

**Problemin yeniliyi.** Ekotərbiyənin təfəkkür baxımından təhlilə cəlb edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə pedaqoqlar və gənc tədqiqatçılar, doktorant və dissertantlar, magistrlər və magistrantlar, eyni zamanda müəllimlər üçün faydalı olacaqdır. Onlar öz fəaliyyətlərində məqalədən bəhrələnəcəklər.

## ƏDƏBİYYAT


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2011.
2. http://azkurs.org/derslik-azerbaycan-respublikas-tehsil-nazirliyinin-14-12-2011.html ( 38 s)
3. G. Hacıyeva. Biologiyanın tədrisi metodikasından mühazirələr. Bakı, 2016.


**Н. Гасанлы**

## МЕТОДЫ И ПРИНЦИПЫ ОРГАНИЗАЦИИ ЭКОВОСПИТАНИЯ

### *РЕЗЮМЕ*

В статье повествуется о методах и принципах организации работ по эковоспитанию. Отмечается, что для развития экотуризма эффективно проведение экскурсий. Важное место в преподавании экологии и экологического образования занимают и внеклассные занятия с учениками. Очень важны экскурсии с классом, туристические поездки и массовые мероприятия. Важно подчеркнуть, что ученики должны знать, что нарушение экологического баланса, может иметь негативные последствия для других природных процессов. Загрязнение атмосферы и ухудшение экологической ситуации могут привести к уничтожению живых существ.

**N. Hasanly**

**METHODS AND PRINCIPLES OF ORGANIZATION OF ECONOMICS**

***SUMMARY***

It is desirable to organize excursions for the development of ecotourism and education. An important place in the teaching of ecology and ecological education lies with classrooms and extracurricular activities with schoolchildren. Excursions from the class to excursions, touristic trips and mass events are important. It is important to emphasize that pupils are disrupted by ecological balance if these or other components of nature are disrupted and may have negative effects on other natural processes. The pollution of the atmosphere and the deterioration of the ecological situation can lead to the destruction of living things.

**Redaksiyaya daxil olub:** 22.11.2017